Azərbaycan Respublikası
İqtisadi İslahatların Təhlili və
Kommunikasiya Mərkəzi



# İXRAC İCMALI

Oktyabr 2024

www.ereforms.gov.az
info@ereforms.gov.az

## TƏQRİBƏN 200 ÖLKƏNİN COP29-UN AZƏRBAYCANDA KEÇİRİLMƏSİNƏ DAİR YEKDİL QƏRARI BİZİM SİYASƏTİMİZƏ HÖRMƏTİN VƏ DƏSTƏYİN PARLAQ SÜBUTUDUR.

Növbəti ayda Bakı ən böyük beynəlxalq iqlim konfransının – COP29-un keçirilməsi məkanı olacaq. Təqribən 200 ölkənin COP29-un Azərbaycanda keçirilməsinə dair yekdil qərarı bizim siyasətimizə hörmətin və dəstəyin parlaq sübutudur. Biz artıq Qlobal Cənub və Qlobal Şimal arasında iqlim üzrə əməkdaşlığa töhfə veririk və istər iqlim dəyişikliyi ilə bağlı məsələlərdə, istərsə də qlobal təhlükəsizlik, beynəlxalq hüququn aliliyi, bir-birinin işlərinə qarışmamaq, qarşılıqlı hörmət məsələlərində qarşılıqlı anlaşmaya nail olunmasına səy göstərəcəyik.




**Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM ƏLİYEVİN 24 oktyabr 2024-cü il tarixində XVI BRICS Sammitinin "Outreach"/"BRICS+" formatının ilk plenar iclasından**

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ........ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ........ səh. 14

Azərbaycan Respublikasının Kosmik Agentliyinə (Azərkosmos) aid xidmət ixracı haqqında məlumat ........ səh. 17

Qeyri-rezidentlər tərəfindən aparılan bank əməliyyatları haqqında məlumat ........ səh. 19

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən qeyri-neft ixracı haqqında məlumat ........ səh. 21


2024 İXRAC İCMALI oktyabr

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT



## 2023-cü ilin yanvar-iyul ayları ərzində 20,8 milyard ABŞ dolları dəyərində mal ixrac olunmuşdur

## Cari ilin yanvar-iyul aylarında qeyri-neft sektoru üzrə ixrac 1.9 milyard ABŞ dolları təşkil etmişdir

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) "İxrac icmalı"nın oktyabr sayını təqdim edib. İcmala əsasən, 2024-cü ilin yanvar-sentyabr ayları ərzində Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 2023-ci ilin müvafiq dövrü ilə müqayisədə **1,3%** artaraq **2,5 milyard** ABŞ dolları təşkil edib. 2024-cü ilin yanvar-sentyabr ayları ərzində yeyinti məhsullarının ixracı **13,3%** artaraq **698,3 milyon** ABŞ dollarına bərabər olub.

Cari ilin ilk 9 ayı ərzində ixrac olunan şəkər və şəkərdən hazırlanan qənnadı məhsulları **83,3%**, pambıq lifi **70,9%**, bitki mənşəli yağlar və piylər **31,7%**, kimya sənayesi məhsulları **20,9%**, spirtli və spirtsiz içkilər **11,6%**, emal edilən meyvə-tərəvəz məhsulları **14,6%** artıb.

2024-cü ilin yanvar-sentyabr ayları ərzində aqrar-sənaye məhsullarının ixracı **60%** artaraq **233,4 milyon**

ABŞ dollarına bərabər olub. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı **17,8%** artaraq **755,4 milyon** ABŞ dolları təşkil edib.

Cari ilin ilk 9 ayı ərzində ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı (**150.7 milyon** ABŞ dolları) birinci olub. Bu siyahıda tomat (pomidor) (**139,6 milyon** ABŞ dolları) ikinci, qızıl (**115.3 milyon** ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2024-cü ilin yanvar-sentyabr aylarında Rusiya Federasiyasına **843.7 milyon** ABŞ dolları, Türkiyəyə **435,1 milyon** ABŞ dolları, Gürcüstana **195,1 milyon** ABŞ dolları, , İsveçrəyə **119,6 milyon** ABŞ dolları, ABŞ-a isə **113 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2024-cü ilin sentyabr ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (**91,7 milyon** ABŞ dolları) birinciliyə yüksəlib. Bu siyahıda Türkiyə (**40.5 milyon** ABŞ dolları) ikinci və Gürcüstan (**37.4 milyon** ABŞ dolları) üçüncü olub.

2024-cü ilin sentyabr ayında ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl (**18,8 milyon** ABŞ dolları) birinci, elektrik enerjisi (**17 milyon** ABŞ dolları), meşə fındığı (**13,3 milyon** ABŞ dolları) üçüncü olub.



# 2024-CÜ İLİN YANVAR-SENTYABR AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2024 İXRAC İCMALI oktyabr

2023 | 2024

+1,3%

2023: **2,4 mlrd**



2024: **2,5 mlrd**

Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# 2024-CÜ İLİN SENTYABR AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2024 İXRAC İCMALI oktyabr

2023 | 2024

+27,5%

**2023:** 223,4 mln

**2024:** 285 mln




Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# 2024-CÜ İLİN SENTYABR AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2023-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)







Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2024-CÜ İLİN YANVAR-SENTYABR AYLARI ƏRZİNDƏ AQRAR VƏ AQRAR-SƏNAYE MƏHSULLARININ İXRACI

(2023-cü ilin müvafiq dövrü ilə müqayisədə, faizlə)

2024
İXRAC İCMALI
oktyabr

- Aqrar məhsullar
- Aqrar-sənaye məhsulları

**755,4 mln $**

2023/2024
**+17,8%**



2023/2024
**+5,4%**

**522 mln $**

**233,4 mln $**

2023/2024
**+60%**

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2024-CÜ İLİN YANVAR-SENTYABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI oktyabr



# 2024-CÜ İLİN SENTYABR AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI oktyabr



# 2024-CÜ İLİN YANVAR-SENTYABR AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI oktyabr

| Mal | 2024 | 2023 |
|---|---|---|
| Pambıq mahlıcı | 150,7 | 88,5 |
| Tomat (pomidor) | 139,6 | 124,3 |
| Qızıl | 115,3 | 101,8 |
| Karbamid | 89,9 | 50,4 |
| Alüminium ərintilərindən düzbucaqlı plitələr | 82,9 | 33,6 |
| PE İlkin formalı propilen sopolimerləri | 78 | 70,6 |
| Metanol (metil spirti) | 75,3 | 65,7 |
| Elektrik enerjisi | 74,5 | 330,4 |
| PE Xüsusi kütləsi 0,94 və ya daha çox olan ilkin formalı polietilen | 73,6 | 72 |

# 2024-CÜ İLİN YANVAR-SENTYABR AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



| | 2024 | 2023 |
|---|---|---|
| Meşə fındığı | 71,6 | 78,6 |
| Şaftalı | 68,6 | 51,2 |
| Polimerləşmədə ilkin formalı maddələr | 59 | 63,3 |
| Kərə yağı | 58,1 | 5,2 |
| Minik avtomobilləri, mühərrikinin həcmi 3000 sm3-dən çox olan sıxılmaqdan alışan DYM-li (dizel) | 55,4 | 27,9 |
| Digər yağlar və məhsullar | 52,7 | 47,3 |
| İlkin formalı polipropilen (PP 5) | 41,3 | 89,8 |
| Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen (PE) | 35,8 | 52,9 |
| Sement klinkerləri | 35 | 32,6 |

# 2024-CÜ İLİN SENTYABR AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

## (2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI oktyabr

| Məhsul | 2024 | 2023 |
| --- | --- | --- |
| Qızıl | 18,8 | 25,7 |
| Elektrik enerjisi | 17 | 15,4 |
| Meşə fındığı | 13,3 | 10 |
| PE İlkin formalı propilen sopolimerləri | 12,9 | 8,1 |
| Kərə yağı | 12,3 | 3,7 |
| Pambıq mahlıcı | 12,2 | 5,1 |
| Karbamid | 11,5 | 8,6 |
| PE Xüsusi kütləsi 0,94-dən çox olan ilkin formalı polietilen | 11 | 8,8 |
| Minik avtomobilləri, mühərrikinin həcmi 3000 sm3-dən çox olan sıxılmaqdan alışan DYM-li (dizel) | 10,9 | 5,2 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2024-cü ilin yanvar-sentyabr ayları üzrə hazırlanmış qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunublar: "MKT İstehsalat Kommersiya" MMC, "Silk Vey Vest Aviaşirkəti" MMC, "ASG Business Aviation" MMC, "Baku Steel Company" QSC, Süleymanova Göhər Süleyman qızı, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Atena" Məhdud Məsuliyyətli Cəmiyyəti, "Tabaterra" QSC, "P-aqro" MMC, "My Vegetables" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə ARDNŞ-nin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunublar: "Socar Polymer" MMC, "Azəralüminium" MMC, "AzerGold" QSC, "Azərenerji" ASC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, Naxçıvan MR Dövlət Energetika Xidməti, "Suraxanı Maşınqayırma zavodu" ASC, "Azəripək" MMC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2024-CÜ İLİN YANVAR-SENTYABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2024-CÜ İLİN YANVAR-SENTYABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI oktyabr



# 3

# “AZƏRKOSMOS”A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT



## 2024-cü ilin yanvar-sentyabr aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi (“Azərkosmos”) 13,9 milyon ABŞ dolları dəyərində telekommunikasiya xidməti ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2024-cü ilin yanvar-sentyabr aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) tərəfindən dünyanın 50 ölkəsinə **13,9 milyon** ABŞ dolları dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. “Azərkosmos”un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **74%**-ni təşkil edib. 2024-cü ilin sentyabr ayında isə “Azərkosmos” dünyanın 40 ölkəsinə **1,5 milyon** ABŞ dolları dəyərində xidmət ixrac edib.

2024-cü ilin yanvar-sentyabr ayları ərzində peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində isə **4.4 milyon** ABŞ dolları ilə Birləşmiş Krallıq, **2,9 milyon** ABŞ dolları ilə Lüksemburq, 736.6 min ABŞ dolları ilə BƏƏ, **493,9 min** ABŞ dolları ilə Türkiyə, **488.1 min** ABŞ dolları ilə Rusiya qərarlaşıb.

# 2024-CÜ İLİN YANVAR-SENTYABR AYLARINDA AZƏRBAYCAN RESPUBLİKASININ KOSMİK AGENTLİYİ (AZƏRKOSMOS) 13,9 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ TELEKOMMUNİKASİYA XİDMƏTLƏRİ İXRAC ETMİŞDİR





**AZERSKY**

Yerin məsafədən müşahidə peyki missiyasını 1 il daha tez, yəni fəaliyyətinin 9-cu ilində başa çatdırdığından optik peyk xidmətləri üzrə məlumatlar cədvəldən çıxarılıb.

## Xidmət ixrac etdiyi 5 əsas ölkə

| | |
|---|---|
| 4,4 mln $ | Birləşmiş Krallıq |
| 2,9 mln $ | Lüksemburq |
| 736,6 min $ | BƏƏ |
| 493,9 min $ | Türkiyə |
| 488,1 min $ | Rusiya |

4

# QEYRİ-REZİDENTLƏR TƏRƏFİNDƏN APARILAN BANK ƏMƏLİYYATLARI HAQQINDA MƏLUMAT



## 2024-cü ilin yanvar-sentyabr ayları ərzində banklara məxsus ödəniş xidməti şəbəkəsində digər qeyri-rezident maliyyə institutlarının emissiya etdiyi ödəniş kartları ilə 2 milyard manatlıq əməliyyat aparılıb.

2024-cü ilin yanvar-sentyabr aylarında banklara məxsus ödəniş xidməti şəbəkəsində digər qeyri-rezident maliyyə institutlarının emissiya etdiyi ödəniş kartları ilə **2 milyard** manat, yalnız sentyabr ayında isə **265.2 milyon** manat dəyərində əməliyyat aparılıb.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# BANKLARA MƏXSUS ÖDƏNİŞ XİDMƏTİ ŞƏBƏKƏSİNDƏ DİGƏR QEYRİ-REZİDENT MALİYYƏ İNSTİTUTLARININ EMİSSİYA ETDİYİ ÖDƏNİŞ KARTLARI İLƏ APARILAN ƏMƏLİYYATLAR (milyon manatla)

2024 İXRAC İCMALI oktyabr

| | 2022 | 2023 | 2024 |
|---|---|---|---|
| Yanvar | 204,7 | 171,5 | 187,9 |
| Fevral | 186,5 | 162,3 | 184,3 |
| Mart | 158,6 | 218,1 | 173,7 |
| Aprel | 136,6 | 126 | 210 |
| May | 184,1 | 173,4 | 225,8 |
| İyun | 203,6 | 148,6 | 221,7 |
| İyul | 214 | 218,8 | 267 |
| Avqust | 214,6 | 200,9 | 251.4 |
| Sentyabr | 155,5 | 186,2 | 265.2 |
| Oktyabr | | | |
| Noyabr | | | |
| Dekabr | | | |
| | **1,7 mlrd** | **1,6 mlrd** | **2 mlrd** |

* Mərkəzi Bankın təqdim etdiyi statistikası əsasında

# 2024-CÜ İLİN OKTYABR AYINDA “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI

(milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI oktyabr




Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
"İxrac İcmalı" jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az

/iqtisadiislahat